# “YAŞAT” Fondu öz missiyasını layiqincə yerinə yetirir

***Vətəni qoruyan, ərazilərimizi işğaldan təmizləyən və bu zaman yaralanan, sağlamlığını itirən, ya da fiziki imkanları məhdudlaşan Azərbaycan hərbçiləri hər zaman dövlətin və xalqın gözündə uca tutulur, onların müalicəsi, fəal həyata inteqrasiyası üçün zəruri addımlar atılır. Şəhid ailələrinə və qəhrəman qazilərə qayğı bu gün dövlətimizin sosial siyasətinin prioritet məsələlərindəndir. Prezident İlham Əliyevin göstərişlərinə əsasən, dövlət qurumları hər iki Qarabağ müharibəsində həlak olanların ailələrinin, qazi və veteranların problemlərini daim diqqətdə saxlamış, onların müşküllərinin çözülməsi üçün ardıcıl tədbirlər həyata keçirmişlər. Bu məqsədlə minlərlə şəxsi əhatə edən sosial dəstək paketləri reallaşdırılır.***

Yaralıların reabilitasiyası, hərbçi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, keçmiş döyüşçülərin işlə, ilk növbədə, təmin olunması üçün davamlı tədbirlər görülür. Cənab İlham Əliyev bu barədə fikirlərini hər zaman aydın şəkildə ifadə edib. Prezidentin sərəncamı ilə İkinci Qarabağ müharibəsində şəhid olan, müharibədə iştirak edən, yaralanan əsgərlərimizin ailələrinə dəstək verilməsi üçün yeni mexanizmlər hazırlanıb və tətbiq edilib – təqaüdləri artırılıb. Bundan başqa, Vətən Müharibəsi Qəhrəmanına Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis olunub ki, onun da məbləği 2000 manatdır. Artımlar, ümumilikdə 100 minədək insanı əhatə edir. Minlərlə şəhid ailəsi və müharibə iştirakçısının ailəsi özünüməşğulluq proqramlarına cəlb edilib, minlərlə adama isə sosial-psixoloji və reabilitasiya xidmətləri göstərilib. Əlavə olaraq mülki şəhidlərimizin ailələrinin də sosial ödənişləri prioritet qaydada tam şəkildə təmin olunub.

Yaxşı xatırlayırıq ki, Zəfərdən bir gün sonra – 2020-ci il noyabrın 11-də cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıdakı 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşdülər. Prezident onları parlaq qələbə münasibətilə təbrik etdi. düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərdiklərini vurğuladı. Dedi ki, qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Müharibənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir. Həmin görüşdə cənab İlham Əliyev bütün yaralıların tezliklə sağalıb sıraya qayıtması üçün nə lazımdırsa, ediləcəyini bildirərək qeyd edib ki, ən ağır yaralanmış hərbçilərimiz də həyata qaytarılacaq. Tibb işçiləri həmin amalla gecə-gündüz çalışdılar. Müharibədə əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirildi. Bu gün qazilər o protezlərdən istifadə edib idmanla da məşğul ola bilirlər.

Azərbaycan Prezidentinin 8 dekabr 2020-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə “YAŞAT” Fondu yaradılıb. Bu, həm də cəmiyyətdə qayğıkeşlik hissinin güclənməsinə, yardımlaşma ruhunun artmasına nail olmaq amalıdır. Fond bu yöndə ciddi işlər görür. Davamlı olaraq həmin kateqoriyadan olan insanlarla görüşlər keçirilir, onlara hər cür yardım göstərilir. Fond koordinativ fəaliyyət funksiyalarını dəqiqliklə yerinə yetirir. Müraciətlər əsasında da hər bir keçmiş döyüşçüyə lazımi dəstək göstərilir. Bu, xeyirxahlığın, birlik və bərabərliyin təzahürüdür. Vətən üçün canını və qanını əsirgəməyən soydaşlarımızı layiq olduqları şəkildə yaşatmaq fondun məramıdır.

Bu il uyunun23-dək fondun hesabına 73 781 435 manat vəsait mədaxil olunub. Ölkə ərazisində 2927 şəhidin ailə üzvləri, habelə 5599 yaralı olmaqla ümumilikdə 17 minədək şəxslə görüş keçirilib və onların ehtiyacları qeydə alınıb. Fond tərəfindən müraciətlərin böyük bir qismi öhdəliyə götürülüb. Reallaşmış ödəniş sayı 21 848 olub. Fondun fəaliyyət istiqamətləri üzrə 61 114 757 manat məbləğində vəsait xərclənib. Bunun yarıdan çoxu məişət şəraitinin yaxşılaşmasına, qalan qismi isə təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafına, istehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanmasına, həmçinin müalicə və psixoloji dəstəyə xərclənən vəsaitlərdir. Təkcə məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı 10215 müraciət təmin edilib.

Fondun diqqətçəkən tədbirlərindən biri “Onlar bizə əmanət” layihəsidir. Vətən müharibəsinin başlandığı 2020-ci il sentyabrın 27-dən sonra dünyaya gələn 102 şəhid övladının zəruri xərclərinin qarşılanması məqsədilə maddi yardımlar edilib və həmin uşaqların hərəsinin adına 5000 manat məbləğində depozit hesabı açılıb.

“YAŞAT” Fondunun vəsaitinin sərəncamçısı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti isə Azərbaycan Respublikası Prezidentinin yaratdığı Himayəçilik Şurası həyata keçirir. Mədəniyyət xadimləri, deputatlar və ictimai fəallardan təşkil olunmuş 11 nəfərlik şura vaxtaşırı toplaşır və fondun həyata keçirdiyi tədbirlər sərf-nəzər edilir, həmçinin gələcək fəaliyyətə dair planlar diqqətə çatdırılır, xərc istiqamətləri müəyyənləşdirilir. Fondun xəttilə onlarca yaralı ölkəmizdəki ən yaxşı klinikalarda müalicə alıb. Qardaş Türkiyəyə müalicəyə göndərilənlər də çoxdur və onların müalicə xərclərinin ödənilməsi təmin edilir. Artıq qazilərin çoxu sağalaraq vətənə qayıdıb. Eyni zamanda, fond tərəfindən Türkiyə və İsraildən həkim heyətləri ölkəmizə dəvət olunub və qazilərimizin müayinə, müalicə və əməliyyatını yüksək səviyyədə həyata keçiriblər.

Əslində, indi sadalayacağımız rəqəmlər heç də quru riyazi ədədlər deyil, bunların hər birinin arxasında insan taleyi, ümidlərin doğrulması, inamın artması kimi mənəvi amillər dayanır. Baxın, müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə şəhid ailə üzvlərinin 4 907 və yaralıların 4 483 müraciəti olmaqla, ümumilikdə 9 390 müraciət təmin edilib. 176 şəxs müalicə məqsədi ilə Türkiyə Respublikasına göndərilib, onlardan 171-i ağır yaralı, 5-i isə şəhid ailəsi üzvüdür. Müalicə alanlardan 148-i ölkəyə qayıdıb. Hazırda 26 ağır yaralının və 2 şəhid ailəsi üzvünün müalicəsi Türkiyə Respublikasında davam edir. “YAŞAT” Fondunun dəstəyi ilə ölkəmizə gətirilən türkiyəli həkimlər tərəfindən 150-dən çox yaralı müayinə edilib.

Fondun təşəbbüsü, İsrailin Azərbaycandakı səfirliyinin və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin təşkilati dəstəyi ilə İsraildən Azərbaycana tibbi-humanitar yardım məqsədi ilə oftalmoloqlardan ibarət nümayəndə heyəti gəlib. Mütəxəssislər qazilərimizin oftalmoloji cərrahi və tibbi müalicəsi məqsədi ilə humanitar yardım çərçivəsində fəaliyyət göstəriblər. Həkimlər gözündən zədə almış 141 hərbçiimizin müayinəsini və 31-nin əməliyyatını həyata keçiriblər. Qazilərin 58-nə protez göz taxılıb. Elə yaralı olub ki, üzərində üçqat prosedur əməliyyatı aparılıb, gözünün içərisinə okulyar linza yerləşdirilib və israilli donordan təzə bir kornea (transplantasiya edilmiş göz bəbəyi) köçürülüb. Uğurlu əməliyyat nəticəsində qazimizin həmin gözünün görmə qabiliyyəti bərpa edilib və 20 faizə yüksəlib, sağalma prosesi getdikcə daha da yaxşılaşıb. Qazi Arif Hacıyevin dünya işığına həsrət qalmamasında bir israilli qadının rolu böyük olub. O, vəfat etmiş həyat yoldaşının gözünün buynuz qişasını Azərbaycan əsgərinə bağışlayıb.

Ciddi fiziki travma alan yaralıların bərpa prosesini daha da sürətləndirmək üçün “YAŞAT” Fondu tərəfindən xaricdən sifariş edilən 38 999 min manat məbləğində “RGO” ortopedik cihazları ölkəmizə gətirilib. Avadanlıqdan 8 yaralının müalicəsində istifadə olunub. Gün ərzində 35-40 nəfər yaralının müalicəsində istifadə edilməsi üçün 47 200 manat məbləğində Giger MD reabilitasiya cihazı alınıb. Ötən ilin avqustunda fondun Himayəçilik Şurasının üzvü, Kopenhagen Universitetinin nevrologiya üzrə professor və baş məsləhətçisi, Beynəlxalq Baş Ağrıları Cəmiyyətinin rəhbəri və İnsan Miqreni Araşdırma Birliyinin direktoru Məsud Aşina tərəfindən 34 nəfər yaralının müayinəsi həyata keçirilib və müalicə istiqamətləri müəyyən edilib.

Bu ilin əvvəlində Türkiyədə fondun dəstəyi ilə müalicə alan 28 ağır yaralının əlillik dərəcəsinin qiymətləndirilməsi məqsədi ilə yaradılmış komissiya səmərəli fəaliyyət göstərib. “VM Medikal Park” xəstəxanasının tibbi heyətinin həkim briqadası (beyin cərrahı, plastik-estetik cərrah və uşaq hematoloqu) ölkəmizə gəlib. Həkimlər Türkiyədə əməliyyat olunan, müalicəsini uğurla tamamalayaraq, ölkəyə qayıdan 20 yaralı və bir şəhid övladını müayinə ediblər. May ayında “YAŞAT” Fondunun, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə Türkiyə Respublikasında müalicəsi davam edən bəzi şəxslərin ölkəyə geri qayıdan zaman reabilitasiya prosesini harada davam etdirmələri barədə müzakirələr aparılıb.

Türkiyədə sağaldılan qazilərin sonadək müalicəsini “YAŞAT” Fondu öz nəzarətində saxlayıb. Proseduru uğurla yekunlaşıb Vətənə qayıdan qazilərimizin sonrakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri fond tərəfindən təmin edilib. Onu da xatırladaq ki, "YAŞAT" Fondunun təşəbbüsü ilə 17-22 yaş aralığında olan bir qrup şəhid övladı 18 Mart – Şəhidləri Anma və Çanakkale Dəniz Zəfərinin 106-cı ildönümünə həsr olunmuş Proqramda iştirak etmək məqsədilə Türkiyə Respublikasına yollanıb. Tarixdə ilk dəfə olaraq təşkil edilən bu proqramda türk dövlətlərindən olan şəhidlərin övladları “Tək ürək” adı altında bir araya gəliblər. Bu isə öz növbəsində onların bir-biri ilə kommunikasiya imkanlarını artırmağa, onlara mənəvi dəstəyi təmin etməyə imkan verib.

Fondun vəsaitindən istifadə istiqamətlərindən biri də şəhid ailəsi statusu alana və ya əlilliyi müəyyən edilənədək götürülən istehlak kreditlərinin və digər borc öhdəliklərinin, təhsil haqlarının ödənilməsinə kömək edir ki, bunlarla da bağlı çoxsaylı konkret əməli addımlar atılıb. Tibbi, sosial dəstəklərlə yanaşı, bu cür maddi dəstəklər də əhali tərəfindən razılıqla qarşılanır.

Fərəhli haldır ki, təhsil, peşə hazırlığı və digər bu kimi istiqamətlər üzrə şəhid ailələrinin 176 və yaralıların 39 müraciəti təmin edilib. Fondun təşəbbüsü ilə təhsil haqları tədris müəssisələri tərəfindən ödənilir ki, indiyədək bu rəqəm 255 min manat həcmində olub. Heydər Əliyev adına Müasir Təhsil Kompleksi, Türk Dünyası Bakı Atatürk Liseyi, XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi, “Hədəf” Liseyi, “Kaspi” Tədris Mərkəzi, “Evrika” Liseyi və Dünya məktəbi təşəbbüsü can-başla qarşılayan təhsil ocaqlarıdır. Eyni zamanda, ötən tədris ili üzrə tələbə adını qazanmış şəhid ailələrinin üzvlərinə və əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara “YAŞAT” Fondu tərəfindən 2000 manat həcmində birdəfəlik pul mükafatı təsis edilib. İndiyədək 47 şəxsə həmin mükafat verilib.



Mart ayında “YAŞAT” Fondu, PAŞA Holding və “Bravo” marketlər şəbəkəsinin dəstəyi ilə şəhid ailələri və müharibə əlillərini Novruz bayramı münasibətilə təbrik edib. Bu məqsədlə 6800-dək Novruz sovqatı qutusu hazırlanıb və ailələrə təhvil verilib.

“YAŞAT” Fondunun, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Bank Respublikanın dəstəyi və “ASAN Könüllüləri” Təşkilatının tərəfdaşlığı ilə bu il 27-30 may aralığında Qəbələdə “YAŞAT” idman düşərgəsi keçirilib. Layihə Kürdəmir, Balakən, Şəki, Qəbələ, Şamaxı və İmişlidən idmana marağı olan şəhid övladlarını əhatə edib. Layihə çərçivəsində 8-13 yaş aralığında şəhid övladları Qəbələ Olimpiya və İdman Kompleksində peşəkar məşqçi heyəti tərəfindən futbol, taekvando, qaydasız döyüş, cüdo, boks, gimnastika və digər idman növlərinin məşqlərinə cəlb olunublar. Eyni zamanda, onlar Azərbaycan kubokunun final görüşündə futbolçularla birgə meydana çıxıblar. Layihənin əsas məqsədi uşaqların hərtərəfli inkişafını təmin etməklə yanaşı daha parlaq gələcək əldə etmələrinə dəstək olmaq, idmana marağı artırmaq, onların asudə vaxtlarını daha səmərəli və əyləncəli keçirmələrini təmin etməkdir.

Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar Türkiyənin Uşaq Oyunları və İdman Klubları Federasiyası ilə birgə təşkil olunan, Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinin, Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyinin və Balıkəsir Böyükşəhər Bələdiyyəsinin tərəfdaşlığı ilə “Hədiyyə Karvanı” layihəsi çərçivəsində Tovuz, Ağstafa, Gədəbəy, Gəncə, Goranboy, Naftalan, Ağcabədi, Ağdam, Füzuli, İmişli, Kürdəmir, Mingəçevir, Şəki və Balakən olmaqla 15 yaşadək olan şəhid və qazi övladlarına hədiyyələrin paylanması həyata keçirilib. 2000-dək uşağa hədiyyələr təhvil verilib.

“YAŞAT” Fondunun və “Neftçi” Peşəkar Futbol Klubunun (PFK) birgə təşkilatçılığı, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) və “ASAN Könüllüləri” Gənclər Təşkilatı İctimai Birliyinin dəstəyi ilə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş şəxslərin övladları üçün “IV Neftçili Yay Futbol Düşərgəsi” layihəsinə 2022-ci ilin 16 iyun tarixində start verilib. On gün davam etmiş layihədə 6-12 yaş aralığındakı 104 şəhid övladı iştirak edib.

“YAŞAT” Fondu tərəfindən şəhidlərimizin orta məktəbdə təhsil alan övladları üçün xüsusi layihə keçirilib. Layihə çərçivəsində yeni tədris ilinin başlanması ilə əlaqədar fond tərəfindən bütün şəhidlərimizin məktəbli övladlarına dərs ləvazimatlarından ibarət 800-dən çox hədiyyə qutuları çatdırılıb.

“Çiyin-çiyinə dəmir yumruq” layihəsi çərçivəsində bu ilin may ayında “YAŞAT” Fondunun, “Azərbaycan Hava Yolları” QSC-nin dəstəyi və Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Əlil Arabasında Qılıncoynatma Federasiyasının (ƏAQF) və “Alanyaspor” futbol klubunun birgə təşkilatçılığı ilə 50-dək qazinin Türkiyənin Alanya şəhərinə birhəftəlik səfəri baş tutub. Layihə çərçivəsində klubun prezidenti ilə görüş, Alanyanın tarixi və mədəni yerləri ilə tanışlıq olub.

Xatırlayırıq ki, 2021-ci ilin dekabrında Bakı Konqres Mərkəzində “YAŞAT” Fondunun 1 illik fəaliyyətinə dair mətbuat konfransı təşkil olunmuş və çaxşaxəli tədbirlərin uğurla keçirildiyi bildirilmişdi. Mətbuat konfransında 50-yə yaxın media qurumunun 80-ə yaxın nümayəndəsi iştirak edirdi. Orada belə bir əminlik ifadə olundu ki, növbəti ilin yekunları daha əhatəli olacaq. Göründüyü kimi, həqiqətən də belə olacağına inam böyükdür.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***